UOT 159.9

***Zenfira İlyas qızı Səlimova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Pedaqoji psixologiya kafedrasının baş müəllimi*

# AZƏRBAYCAN XALQ NAĞILLARINDA PSİXOLOJİ FİKİRLƏR

***Земфира Ильяс гызы Салимова***
*старший преподаватель кафедры Педагогической психологии*
*Азербайджанского Государственного Педагогического Университета*

# ПСИХОЛОГИЧЕСКИЕ МЫСЛИ В АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ СКАЗКАХ

***Zemfira Ilyas Salimova***
*Senior teacher of the department of pedagogical psychology*
*of the Azerbaijan State Pedagogical University*

# PSYCHOLOGICAL THOUGHTS IN AZERBAIJANI FOLK TALES

**Xülasə.** Məqalədə deyilir ki, nağıllar şifahi xalq ədəbiyyatının bir nümunəsidir. Azərbaycan nağılları xalqımıza xas olan bir sıra gözəl cəhətləri özündə əks etdirir.

Folklorumuzun epik növünə daxil olan janrlar sırasında nağıllar xüsusi yer tutur. Nağıllar şifahi xalq ədəbiyyatının ən qədim janrlarındandır. Dastan, qaravəlli, lətifə, bəzən silsiləli məhəbbət dastanları, rəvayətlər və nağıllar çox vaxt nağıllar qrupuna daxil edilir. İnsanın bütün psixi xüsusiyyətləri (xarakter, qabiliyyət, temperament), psixi xüsusiyyətləri (qavrama qabiliyyəti, yaddaş, təfəkkür, təfəkkür, təxəyyül, fantaziya, arzu, xəyal), onun yaşadığı emosional vəziyyətlər (emosional duyğular, cəsarət və qəhrəmanlıq impulsları) nağıllarda toplanır, ümumiləşdirilərək nəsildən-nəslə ötürülür.

***Açar sözlər:*** *nağıl, mif, sehr, materialist təfəkkür, qəhrəman*

**Резюме.** В статье отмечается, что сказки являются образцами устной народной литературы. В азербайджанских сказках отражен ряд прекрасных черт, присущих лишь нашему народу. Сказки занимают особое место среди жанров, входящих в эпический тип нашего фольклора. Сказки относятся к древнейшим жанрам устной народной литературы. анекдот, Любовные истории, эпосы, легенды и мифы также входят в группу сказок. Все психические особенности человека (характер, способности, темперамент, восприятие, память, мышление, воображение, фантазии, желания, мечты) переживаемые ими эмоциональные состояния собраны в сказки, обобщены и переданы из поколения в поколение.

***Ключевые слова:*** *сказка, миф, волшебство, материалистическое мышление, герой*

**Summary.** The article states that one of the examples of oral folk literature is fairy tales. A number of beautiful features unique to our people are reflected in Azerbaijani fairy tales. Among the genres included in the epic type of our folklore, fairy tales have a special place. Tales are one of the oldest genres of oral folk literature. Sagas, carvallis, anecdotes, sometimes a series of love stories, narratives and fairy tales are often included in the group of fairy tales. All mental characteristics of a person (character, abilities, temperament), mental characteristics (ability to perceive, memory, thinking, thinking, imagination, fantasy, desire, dream), emotional states experienced by him (emotional emotions, courage and heroic impulses) are collected in fairy tales. summarized and passed down from generation to generation.

***Key words:*** *fairy tale, myth, magic, materialist thinking, hero, heavenly bodies*

Şifahi xalq ədəbiyyatı nümunələrindən biri nağıllardır. Azərbaycan nağıllarında xalqımıza xas olan bir sıra gözəl xüsusiyyətlər əks olunmuşdur. Bunlardan ən çox gözə çarpanı qəhrəmanlıq və vətənpərvərlik motivləridir. Aydındır ki, vətənpərvərlik haqqında danışarkən onu xalq qəhrəmanlığından, habelə xarici və daxili düşmənlərlə mübarizədən ayırıb təcrid edilmiş şəkildə izah etmək doğru olmaz. Bu məsələlər bir-biri ilə üzvi surətdə bağlıdır.

Nağılda xalq vətənpərvərliyi və qəhrəmanlığından danışarkən, ilk növbədə, həmin ideyaların yaranması səbəblərini aydınlaşdırmaq lazımdır. Bunun üçün, hər şeydən qabaq, xalqın tarixinə müraciət etmək lazımdır. Azərbaycan xalq nağıllarında qəhrəmanlıq, vətənpərvərlik, məqsədə nail olmaq üçün hər cür çətinliyə qalib gəlmək, doğruluq, dostluqda sədaqətli olmaq, əməyi sevmək və s. tərənnüm edilmişdir ki, bu xüsusiyyətlər də uşağın şəxsiyyətinin inkişafında və tərbiyəsində böyük əhəmiyyətə malikdir.

Folklorumuzun epik növünə daxil olan janrlar içərisində nağılların xüsusi yeri vardır. Nağıllar da şifahi xalq ədəbiyyatının qədim janrları sırasındadır: rəvayət, qaravəlli, lətifə, bəzən də bir sıra məhəbbət dastanları, əfsanə və əsatir də çox zaman nağıl qrupuna daxil edilmişdir. Doğrudur, bu janrların oxşar, yaxın əlamətləri çoxdur. Ancaq bunları heç bir zaman eyniləşdirmək və qarışdırmaq olmaz. Əksinə, bu nümunələri fərqləndirən əlamətləri tapıb üzə çıxarmaq və beləliklə də hərəsinin özünəməxsus cəhətlərini aşkar etmək lazımdır.

Ulu babalarımızın inam, əqidə, əxlaqi, xarakter, etiqadları, təxəyyül və hisslərinin, düşüncə tərzinin izlərinə də xalq yaradıcılığı nümunəsi olan nağıllarda rast gəlirik. Nağıllarda Azərbaycan xalqının xeyirxahlıq, yaxşılıq, insanpərvərlik, əsl kişilik, mərdlik, qəhrəmanlıq, dosta, vətənə, el-obaya sadiqlik, ana südünə hörmət və məhəbbət hissləri üstünlük təşkil edir. Ən ağır məqamlarda belə xeyirxah adamlar yaxşılıq etməkdən çəkinmir, dosta, qonşuya, qonağa özü qədər hörmət etməyi bacarır. Bu gün Azərbaycan xalqının sevgi-məhəbbəti, fantastik təxəyyülü, təfəkkürü və hissləri, iradəsi, xasiyyəti, cəsarəti, dözümlülüyü və digər sərvətləri özündə cəmləşdirən nağıllardan uşaq və yeniyetmələrimizin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında geniş istifadə etməliyik.

İnsana məxsus olan bütün psixi xüsusiyyətlər (xarakter, qabiliyyət, xasiyyət), psixi xüsusiyyətlər (qavramaq bacarığı, yaddaş tərzi, düşünmək, təfəkkür, təxəyyül, fantaziya, arzu, xəyal), onların keçirdiyi hissi emosional halətlər (hissi emosiyalar, mərdlik və qəhrəmanlıq motivləri) nağıllarda toplanmış, ümumiləşdirilmiş və nəsildən-nəslə verilərək bu günə çatdırılmışdır.

Azərbaycan nağıllarında xalqımıza xas olan bir sıra gözəl xüsusiyyətlər əks olunmuşdur. Bunlardan gözə çarpan alicənablıq, yaxşılıq, səmimilik, qəhrəmanlıq, vətənpərvərlik, xarakter bütövlüyü, dözümlülük motivləridir. Çox zaman keçmiş şahlar ağıllı adamlardan, nüfuzlu şəxslərdən, xalq qəhrəmanlarından qorxurdular.

Nağılın əsas xüsusiyyətindən biri də odur ki, heç vaxt olmamış və mövcudluğuna ehtimal olmayan hadisələr elə şəkildə və üslubda, elə intonasiya və elə mimika və jestlərlə deyilir ki, öz qeyri-adiliyinə baxmayaraq, bütün danışıqlar guya gerçəklikdə baş vermişdir. Qədim dövrlərdə folklor xalqın mənəvi ehtiyacını ödəyən yeganə sənət növü olduğu üçün məişətdə, ailədə, uşaqlara, kiçik məclis iştirakçılarına daha çox onun janrlarından olan nağıl danışılırdı. Digər tərəfdən, bəzən bir neçə süjet xətti üzrə inkişaf edən mürəkkəb kompozisiyalı bir nağılın hər hansı bir süjeti öz kökündən ayrılır, dildən-dilə düşərək, bəzi əlavələrlə yeni bir nağıl əmələ gətirirdi. Bundan başqa, iki və bir neçə nağılın çarpazlaşması ilə də təzə nağıl yaranırdı.

Nağıllar öz əlamətlərinə görə seçilir. Nağıl bütün dünya xalqları içərisində geniş yayılmış epik janrdır. Əşya və təbiət hadisələrinin canlandırılması, insanlara məxsus xasiyyət və keyfiyyətlərin əşya və heyvanlar üzərinə köçürülməsi, cəmiyyətdə, təbiətdə çox adi görünən hadisələrin fantastik şəklə salınması, fövqəladə hadisələrlə qaynayıb qarışdırılması, gələcəyə nikbin münasibət, inam, xoş əhval-ruhiyyə, geniş epik lövhələrin, macəra və mürəkkəb hadisələrin bolluğu və s nağıllara xas olan xüsusiyyətlərdir. Nağıllar təxminən aşağıdakı kimi təsnif edilir: heyvanlar haqqında olan nağıllar, sehrli nağıllar, tarixi nağıllar, ailə-məişət nağılları, satirik nağıllar. V.Q. Belinski sehr, cadu, ofsun, tilsim, div, əjdaha, fantastika və sairəni nağılların əsas əlamətlərindən saymışdır.

Azərbaycan ədəbiyyatında C. Cabbarlının "Qız qalası", "Od gəlini" S. Vurğunun "Ayın əf-

sanəsi", "Qız qayası", "Bulaq əfsanəsi", M. Rahimin "Arzu qız", "Qırx qız" əsərlərində də xalq nağıl və əfsanələrindən istifadə edilmişdir. Azərbaycan nağıllarında xalqın milli xüsusiyyətləri, adət-ənənələri, məişət tərzi təsvir olunur. Bu nağıllar müxtəlif dövrlərdə xalqın dünyagörüşünü, həyata münasibətini, gələcək haqqında arzularını, azadlıq, müstəqillik uğrunda xarici işğallara, yerli zalımlara qarşı mübarizəsini, onun öz gücünə işğalçılara, yerli zalımlara qarşı mübarizəsini, öz qüvvəsinə, gələcəyə inamını bədii boyalarla əks etdirir. Qeyd etdiyimiz kimi, nağıl törəmələrindən başqa improvizator nağılçılar məlum bir nağılı elə dəyişdirirlər ki, əvvəlki nağıldan fərqli yeni nağıl əmələ gəlir. Beləliklə, nağılların sayı başqa janrlara nisbətən sürətlə çoxalır. Üstəlik, epik növün başqa janrlarının nağıllara əlavə olunması da bu janrda həm çoxluq əmələ gətirir, həm də mövzu qarmaqarışıqlığı törədir.

Azərbaycan nağılları bədii cəhətdən kamil əsərlərdir. Geniş xalq kütlələri əsrlər boyu bu nümunələri zamanın ən sərt sınaqlarından çıxarmış, onları yalnız ideya və məzmunca deyil, forma, dil, və bədii ifadə vasitələrinin zənginliyi cəhətdən də yüksək səviyyəyə qaldırmışdır. Azərbaycanda nağılları düzəldən, yaddaşında qoruyub saxlayan və çox cazibəli bir dillə danışan xüsusi sənətkarlar olmuşdur ki, onlara nəqqal deyilmişdir. Qədim azərbaycanlılar uzun gecəni nağıllarda keçirmişdir. Y.V. Çəmənzəminlinin "Nağılları necə toplamalı" adlı məqaləsində aşağıdakı qeydlər bu cəhətdən maraqlıdır: "Ələləksər nağıla və bütün xalq ədəbiyyatına vaqif olan arvadlardır. Arvadların da içində hamısı yox, yalnız xalqın işinə yarayan və onunla həmişə təmasda olanlar bilirlər. Xalqa yaxın olanlar məşşatələr, ağıçılar, yengələrdir ".

Azərbaycan nağıllarının özünəməxsus forma xüsusiyyətləri vardır. Xalq sənətkarlarının əsrlər boyu seçib, cilalayıb, kamilləşdirdiyi bu forma xüsusiyyətləri nağılın bədii, emosional təsirini artırmaq, yaddaşlarda daha asan həkk olunmasını təmin etmək məqsədini daşımışdır. Nağıllarda əsrlər boyu sabitləşən, kamilləşən ənənəvi forma komponentləri vardır.

Nağıllarda Azərbaycan xalqının fəlsəfimifik təfəkkürünə əsaslanan iki qüvvə: xeyir və şər qarşılaşır. Xeyirxah insanlar Günəş, işıq, su, at, xeyir Allahı Hörmüzə, bədxah, paxıl, xəbis insanlar şər Allahı Əhrimana qulluq edirlər. Hər zaman xeyir şərə qalib gəlir. Bu iki qüvvə arasında mübarizə aparmaqla insan inkişaf edir. Bu fikrin özü uşaqları, böyüyən gənc nəsli xeyirxahlığa, insani və bəşəri keyfiyyətlərə çağırır. Nağıllarımız kəmiyyət etibari ilə zəngin, keyfiyyət etibari ilə isə rəngarəngdir. Bu səbəbdən çoxsaylı nağılların ideya istiqamətini və forma xüsusiyyətlərini yaxşı öyrənmək üçün onları müəyyən qruplara bölmək lazım gəlir.

Qeyd etməliyik ki, indiyədək dünya folklorşünaslığında nağılların dəqiq, sabit qruplaşdırılması yoxdur. Azərbaycanda Y.V. Çəmənzəminli, M.H. Təhmasib, Ə. Qarabağlı, İ. Seyidov və başqaları nağıl haqqında müxtəlif tədqiqatlar aparmışlar. Y.V. Çəmənzəminli nağılları üç yerə bölür: qədim ayinlər, zərdüştlüklə bağlı nağıllar, tarixə yanaşan nağıllar, cocuq nağılları.

Müasir dövrdə isə nağılları aşağıdakı şəkildə bölmüşlər: sehrli nağıllar, heyvanlar aləmindən bəhs edən nağıllar (buraya alleqorik nağıllar da daxil edilir), tarixi nağıllar, ailə-məişət nağılları, satirik nağıllar və s.

Sehrli nağıllar ən qədim nağıllardır. Bunlarda xalqın lap qədim dövrlərdə yaratdığı əfsanələr toplanmış, insanın təbii qüvvələrə, vəhşi heyvanlara qarşı mübarizəsi əks edilmişdir. Məlumdur ki, qədim insanlar təbii qüvvələr, vəhşi heyvanlar qarşısında aciz olduqlarından onları həmin nağıllarda div, əjdaha şəklində təsvir etmişlər. Beləliklə, bu nağılların ideya-siyasi əhəmiyyətindən başqa, bir də qədim insanların materialist təfəkkürünün, fəlsəfəsinin izlərini özlərində saxladığı üçün elmi əhəmiyyəti vardır. Bu nağıllar Azərbaycan xalqının fantaziyasını, bədii təfəkkürünü nümayiş etdirir. Belə nağıllara "Hatəmin nağılı", "Ax-bax", "Şahzadə Mütalib", "Sehrli üzük", "Şəms və Qəmər", "Məlik Məmməd", "Qaraqaş" və s. misal göstərə bilərik. Bu nağıllarda qəhrəmanlar sehr, cadu, ovsun, əfsanəvi köməkçilərlə düşmənə qarşı mübarizə aparır, divlərə, əjdahalara, qırılmaz tilsimlərə qarşı vuruşurlar. Bəzən bu nağıllarda əfsanəvi yerlər, zülmət dünyası, hətta o biri dünya təsvir edilir. Lakin bütün bunları diqqətlə öyrəndikdə görürük ki, bu nağıllarda onları yaradan xalqın mübarizəsi, iztirabları, xoşbəxt gələcək haqqında arzusu, düşmənlərə nifrəti ifadə edilmişdir. İnsanlar belə nağılları yaratmaqla öz əməklərini yüngülləşdirməyə çalışır, əmək məhsuldarlığını artırır, dörd-

ayaqlı və ikiayaqlı düşmənlərə qarşı söz və silah qüvvəsi ilə mübarizə edə bilir. Təbiətin insanlara düşmən olan bəlalarına təsir etməklə arzularını həyata keçirə bilir. Sehrli nağıllardakı ovsun, tilsim, cadu və s. heç də dini xarakter daşımır. Bu tilsimlər arasında, cadular içərisində xalqın istəkləri, arzuları ifadə edilir. Belə nağıllardan "Məlik Məmməd", "Keçəl Məmməd", "Kül oğlan" və başqa nağılları göstərə bilərik.

Bəzi sehrli nağıllarda qədim insanların astronomik görüşləri, yəni göy cisimləri və onların xüsusiyyətləri haqqındakı mülahizələri də ifadə olunmuşdur. Məlumdur ki, xalqın bu barədə fikirləri bir çox tapmacalarda, bayatılarda əks olunur. Bununla belə, nağıllarda da öz əksini tapmışdır. Belə nağıllardan "Şəms-Qəmər" nağılı daha çox diqqəti cəlb edir. Burada iştirak edən surətlərin əksəriyyətinin adı göy cisimlərindən götürülmüşdür. Oğlan Qəmər – ay, qız Şəms – günəş, onların bir-birinə qovuşmasına yaxından kömək edən Asiman – göy cismidir. Daha sonra burada Afitab, Rövşən, Səttar, Ülkər, Kokəb və başqa surətlər də iştirak edirlər. "Şəms-Qəmər" nağılı bir sıra xüsusiyyətləri ilə bizim məhəbbət dastanlarımızı xatırladır.

*Heyvanlar haqqında olan nağıllar* da çox qədim dövrün hadisələri ilə bağlı olaraq yaranmışdır. Bu nağıllarda çox qədim zamanlarda insanların müxtəlif heyvanlara münasibəti, onların haqqında mülahizələri saxlanmışdır. Müxtəlif xalqlar yaşadıqları ərazi və dövrlərlə əlaqədar möcüzələr danışmış, əfsanələr, əfsunlar düzəltmişlər. *Tarixi nağıllar,* tarixi şəxsiyyətlər, hökmdarlar, padşahlar, xalq qəhrəmanları, məşhur sənətkarlar, inqilabçılar haqqında yaranan nağıllardır. Bu nağıllarda tarixi şəxsiyyətlərin həyatı, fəaliyyəti ilə əlaqədar olan hadisələr nağıl janrının tələblərinə uyğun olaraq fantastikləşdirilir. Tarixi nağıllarda xalq kütlələrinin hökmdarlara olan münasibəti əks olunmuşdur. *Məişət nağılları* sehrli nağıllardan fərqli olaraq, daha humanist xüsusiyyətlərə malik olurlar. Bu nağıllarda fantastik görüntülər olsa da, onlar sehrli nağıllardakı həddə çatmır. Buradakı obrazlar konkret olaraq zəhmətkeş xalqın içərisindən çıxmış qəhrəmanlardır.

Azərbaycan xalq nağılları içərisində *məişət nağılları* öz mövzu müxtəlifliyinə görə fərqlənir. Məişət nağıllarında real həqiqətlər, ictimai-siyasi fikirlər daha qabarıq göstərilir. Bu nağıllar öz süjetləri, surətləri etibarı ilə digər nağıl növlərindən fərqlənirlər. Sehrli nağıllardan fərqli olaraq məişət nağıllarında ("Şahla qız", "Padşahla pinəçi", "Lal qız", "İki qonşu", "Yeddi nar çubuğu", "Üç sənətkar" "Dərzi Əhməd "və s) süjetlər real hadisələr üzərində qurulur. Həm sehrli, həm də məişət nağıllarında mübarizə motivləri mövcuddur. Fərq orasındadır ki, məişət nağıllarında ictimai ziddiyyətlər daha tez gözə çarpır. Burada uşaqlar müxtəlif məişət problemləri ilə tanış olurlar. Məişətdə işlənən əşyaların mahiyyətini dərk edirlər. Bu isə onlarda məfhumları inkişaf etdirir. Təfəkkürün rəngarəng formalarına aydınlıq gətirir.

Nağıllarımızda yoldaşlıq, dostluq, bir-birinə kömək etmək motivləri də çox yaxşı verilmişdir. Yoldaşlıq, birlik qələbəni təmin edən amillərdəndir. Azərbaycanda xalq nağılları təlim və tərbiyənin düzgün gedişinə, əməyin təşkilinə, ailə münasibətlərinin düzgün qurulmasına, insanların sağlamlığının qorunmasına müsbət təsir göstərir.

**Problemin aktuallığı.** Azərbaycan nağıllarında xalqımıza xas olan bir sıra gözəl xüsusiyyətlər, psixoloji fikirlər öyrənilmiş və onların zəruriliyi xüsusi olaraq qeyd olunmuşdur.

**Problemin elmi yeniliyi.** Məqalədə nağılların növləri sistemləşdirilmiş və ardıcıllıqla araşdırılmış, habelə Azərbaycan nağıllarının özünəməxsus forma xüsusiyyətləri əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Azərbaycan nağılları 5 cilddə, I cild. -Bakı: Şərq-Qərb, -2005. -360 s.
2. Azərbaycan nağılları 5 cilddə, IV cild. -Bakı: Şərq-Qərb, -2005. -36 s.
3. Əfəndiyev Paşa "Azərbaycan şifahi xalq ədəbiyyatı" -Bakı-2008. -535 s.
4. Əfəndiyev Paşa "Azərbaycan folklorşünaslığı" (1920-ci ilə qədər) -Bakı-1994. -155 s.
5. http://www.nagillar.az/info/azerbaycan_nagillari_haqqinda.html


**E-mail:** zema.salımova@mail.ru

**Rəyçilər:** *psixol.ü.fəls.dok., dos.* **M.C. İsmayılova**
*psixol.ü.fəls.dok., dos.* **S.N. Heydərova**
**Redaksiyaya daxil olub:** 01.09.2022.